# ÜZVİ KİMYANIN IX SİNİFLƏRDƏ TƏDRİSİ ZAMANI MODELLƏŞDİRMƏNİN TƏTBİQİ

[1]N.Ə.Abışov, [2]Ü.Ş.Baxşıyeva

[1]*İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyin direktoru*
[2]*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Artıq 2016/2017-ci tədris ilindən başlayaraq orta ümumtəhsil məktəblərində IX siniflərdə kimyanın təlimində yeni Kimya Fənn Kurikulumları əsasında hazırlanmış dərsliklərdən istifadə olunacaqdır. Onu da qeyd etmək lazımdır ki, dərslik 52 paraqraf və 204 səhifədn ibarətdir. Bu dərsliyin tədrisinə həftədə 2 saat olmaqla, illik 68 saat ayrılmışdır. Bu dərslikdə də olan mövzuların ağırlıq dərəcəsini və əhəmiyyətini nəzərə alaraq yenə də hesab edirik ki, kimya fənninin tədrisinə həftədə ən azı 3 saat ayırmaq məqsədə uyğun olardı. Belə ki, IX sinifdə metallar (əsas yrımqrup, əlavə yarımqrup), qeyri-metallar (flüor yarımqrupu, oksigen yarımqrupu, azot yarımqrupu, karbon yarımqrupu), karbohidrogenlər (alkan, alken, asetilen, dien karbohidrogenləri, tsikloparafinlər və aromatik karbohidrogenlər), karbohidrogenlərin oksigenli və azotlu törəmələri (doymuş spirtlər, aldehidlər, karbon turşuları, sadə və mürəkkəb efirlər, yağlar, sabun, karbohidratlar, aminturşular, zülallar, polimerlər) kimi çətin mövzuların tədrisinə cəmisi 68 saatın ayrılması başa düşülən deyil [1].

Dərslikdə fəsillər üzrə müxtəlif model nümunələri verilmişdir, amma fikrimizcə bu modellərin sayını artırmaq daha effektiv olardı.

Dərslikdə qırmızı və qara fosfor, almaz, qrafit, fülleren, $SiO_2$, $CO_2$, karborundun kristal qəfəslərinin modelləri verilsə də metalların kristal qəfəsləri verilməmişdir. Ona görə də dərslikdə verilməyən və bizim təklif etdiyimiz modellər fəsillər üzrə aşağıda verilmişdir:

Fəsil 7. Karbon yarımqrupu elementləri

Bu fəsildə karbon yarımqrupu elementlərinin ümumi xarakteristikası, karbon, karbon oksidləri, karbonat turşusu və onun duzları, təbiətdə karbon dövranı, silisium, silisium-dioksid və metasilikat turşusu, silisiumun təbii birləşmələri və onların texnikada tətbiqi tədris olunması nəzərdə tutulur. Bu fəsil üzrə aşağıdakı modellərdən istifadə etmək olar:

- Dövri sistemdə karbon yarımqrupu elementlərinin yerləşməsin göstərən animasiya modeli
- Sıra nömrəsinin artması ilə atom radisunun artmasını göstərən plastilindən hazırlanmış modellər

- Minerallara aid interaktiv oyun modelləri
- Elektron konfiqurasiyalarına aid interaktiv oyun modelləri
- Almaz, qrafit, füllerenin mil-kürəcik modelləri
- karbonun binar birləşmələrdə oksidləşmə dərəcələrin tapmaq üçün interaktiv oyun modelləri
- Kimyəvi reaksiyalara aid interaktiv oyun modelləri
- karbon oksidlərinin mil-kürəcik modelləri
- karbonat turşusunun mil-kürəcik modelləri
- təbiətdə karbon dövranının modeli
- silisium-dioksid və karbon –dioksidin kompyuter modeli

Üzvi kimyanın orta məktəbdə tədrisinə Fəsil8. Karbohidrogenlər mövzusu ilə başlanılır.

Fəsil 8. Karbohidrogenlər

Bu fəsildə doymuş karbohidrogenlər (alkanlar), metan, doymamış karbohidrogenlər, etilen sırası karbohidrogenləri (alkenlər), etilen, asetilen və dien karbohidrogenləri, asetilen, tsiklik karbohidrogenlər-tsikloparafinlər və aromatik karbohidrogenlər, karbohidrogenlərin təbii mənbələri və onların emalının tədris olunması nəzərdə tutulur. Bu fəsil üzrə aşağıdakı modellərdən istifadə etmək olar:

- Metan, etan, butan, izobutan, tsiklopentan molekullarının mil-kürəcik modeli
- n-butan və izobutan molekullarının mil-kürəcik modeli
- etil spirti və dimetil efiri molekullarının mil-kürəcik modeli
- $CH_3Cl \rightarrow CH_3OH \rightarrow CH_3COH \rightarrow CH_3COOH \rightarrow H_2NCH_2COOH$ molekullarının mil-kürəcik modeli
- $C_5H_{12}$ formula uyğun molekulların mil-kürəcik modelləri
- Kimyəvi reaksiyalara aid interaktiv oyun modelləri
- Metan, etan və butan molekullarının mil-kürəcik və kürəcik modelləri
- Metanın xlorlaşması reaksiyasının modelləşdirilməsi
- Etil spirtindən və etandan etilenin alınması reaksiyasının modelləşdirilməsi
- Etilen molekulunun mil-kürəcik modeli
- Asetilen molekulunun mil-kürəcik və kürəcik modeli
- Asetilenin hidrogenləşməsi və polimerləşməsi reaksiyasının modelləşdirilməsi
- Tsiklopropan, tsiklobutan, tsiklopentan, tsikloheksan molekullarının mil-kürəcik və kürəcik modelləri
- Benzol və toluol molekullarının mil-kürəcik və kürəcik modelləri
- Neftin fraksiyalı distilləsinin animasiyalı modeli

N.N.Pilnikova doymamış karbohidrogenlərin 9-cu sinifdə tədrisi zamanı şagirdlərin doymamış birləşmələrin kimyəvi xassələrinin mahiyyətini, reaksiya

zamanı molekulların quruluşunun necə dəyişməsini daha yaxşı mənimsəmələri üçün etilenin iştirakı ilə reaksiyaların modelləşdirilməsinin vacibliyini qeyd etmişdir. Müəllifin təklif etdiyi dərs modelində şagirdlər qruplara ayrılır və onlara xlor, hidrogen və suya aid tapmaca verilir. Qrupların hansı maddəyə aid tapmacanı tapmasından asılı olaraq onlara tapşırıqlar verilir. Beləliklə, xlor haqqındakı tapmacanı düzgün tapan qrupa plastin şarlardan istifadə edərək etilen molekuluna xlorun birləşməsini göstərən reaksiyanın, hidrogen haqqındakı tapmacanı düzgün tapan qrupa etilen molekuluna hidrogenin birləşməsini göstərən reaksiyanın modellədirilməsini, su haqqındakı tapmacanı düzgün tapan qrupa etilen molekuluna suyun birləşməsini göstərən reaksiyanın modellədirilməsini tapşırır. Bunlarla yanaşı müəllif hər bir qrupa uyğun problemli suallar verir [2].

Fəsil 9. Karbohidrogenlərin oksigenli və azotlu törəmələri

Bu fəsildə doymuş spirtlər, etanol, etilenqlikol və qliserin, doymuş aldehidlər, sadə aldehid, karbon turşuları,sirkə və ali karbon turşuları, mürəkkəb efirlər, karbohidratlar, aminturşular və zülallar, irimolekullu birləşmələr-polimerlərin tədris olunması nəzərdə tutulur. Bu fəsil üzrə aşağıdakı modellərdən istifadə etmək olar:

- Etil spirtinin mis (II) oksidlə oksidləşməsinin animasiyalı modeli
- Metanol, etanol və propanol molekullarının mil-kürəcik və kürəcik modelləri
- Etilenin hidratlaşması reaksiyasının modelləşdirilməsi
- Etlenqlikol və qliserin molekullarının mil-kürəcik və kürəcik modelləri
- Formaldehid və etanal molekullarının mil-kürəcik və kürəcik modelləri
- Qarışqa və sirkə turşusu molekullarının mil-kürəcik və kürəcik modelləri
- Palmitin, stearin və olein turşularının molekullarının mil-kürəcik və kürəcik modelləri
- Zülal molekulunun ilkin, ikinci və üçüncü quruluşunun kompyutr modelləşdirilməsi
- Etlenin polimerləşvəsinin modelləşdirilməsi

## IX SINIF DƏRS MODELI

Yeni kimya fənn kurikulumuna əsasən üzvi kimyaya giriş, karbohidrogenlər və karbohidrogenlərin oksigenli və azotlu törəmələri artıq IX sinifdən başlanılır. Ona görə də biz IX siniflər üçün dərs modelini yeni layihəyə əsasən Fəsil 8-dən (Üzvi kimya) §40. Doymuş karbohidrogenlər (alkanlar). Metan mövzusu üzrə vermişik.

IX sinif üçün dərs modeli

Sinif IX

Mövzu. Doymuş karbohidrogenlər (alkanlar). Metan

Şagirdlər:

I Maddə və maddi aləm məzmun xətti üzrə

1. Doymuş karbohidrogenlərin homoloji sırasını, quruluşunu ($sp^3$-hibridləşmə), izomerliyini, adlandırma üsullarını (tarixi, səmərəli, Beynəlxalq) və onların fiziki xassələrini təhlil edir.

1.1. Alkanların homoloji sırasını və onlarda karbon atomlarının hibridləşmə vəziyyətinə görə quruluşunu müəyyən edir.

1.2. Alkanları tarixi, səmərəli və Beynəlxalq nomenklatura ilə adlandırır.

1.3. Alkanlarda izomerlik hadisəsini izah edir.

1.4. Alkanların fiziki xassələrini təhlil edir, izomer alkanların fiziki xassələrini müqayisə edir.

II Kimyəvi hadisələr məzmun xətti üzrə

1 Doymuş karbohidrogenlərin (alkanların və tsikloalkanların) alınması üsullarını və kimyəvi xassələrini əks etdirən reaksiya tənliklərini yazır və onlar üzərində hesablama aparır.

1.1.Alkanların alınması üsullarını əks etdirən reaksiya tənliklərini yazır və onlar üzərində hesablamalar aparır.

1.2.Alkanların kimyəvi xassələrini (əvəzetmə, parçalanma, krekinq, oksidləşmə, yanma reaksiyaları) əks etdirən reaksiya tənliklərini yazır və onlar üzərində hesablamalar aparır.

1.3.Alkanların xlorla əvəzetmə reaksiyalarının mexanizmini izah edir.

1.4.Metanın yüksək temperaturda su buxarı və karbon qazı ilə qarşılıqlı təsirindən sintez qazın alınması reaksiyalarının tənliklərini yazır və müvafiq tənliklər üzrə hesablamalar aparır.

III Eksperiment və modelləşdirmə məzmun xətti üzrə

1. Müxtəlif sinif karbohidrogenlərin və onların halogenli törəmələrinin modellərini hazırlayır.

1.1. Alkanların modellərini hazırlayır və fəzada onların quruluş formullarını yazır.

1.5.Karbohidrogenlərin halogenli törəmələrinin modellərini hazırlayır və onları müqayisə edir.

1.6. Üzvi birləşmələrdə karbonun, hidrogenin və xlorun təyini təcrübələrini nümayiş etdirir.

IV Kimya və həyat məzmun xətti üzrə

1. Karbohidrogenlər və onların halogenli törəmələrinin tətbiq sahəsini və əhəmiyyətini şərh edir.

1.1. Metanın xlorlu törəmələrinin soyuducu qurğularda ($CH_3Cl$), həlledici kimi ($CH_2Cl_2$, $CHCl_3$, $CCl_4$) və tetraxlormetanın yanğın söndürmədə, yodoformun ($CHJ_3$) tibbdə açıq yaraların müalicəsində istifadə olunduğunu şərh edir.

Təlim forması: cütlərlə və qruplarla iş

Təlim üsulu: problemli-dialoji şərh, müzakirə, müstəqil işin təşkili

Resurs: dərslik, sxem və cədvəllər, iş vərəqi, mil-kürəcik modelləri, xüsusi kürəciklər, kompyuter, proyektor, ştativ, qazaparan boru, natrium-asetat, NaOH, həvəngdəstə, $KMnO_4$ məhlulu, bromlu su, spirt lampası, 3 sınaq şüşəsi, kibrit

Dərsin gedişi:

Əvvəlcə müəllim sinfi bir neçə qrupa bölür və onlara belə bir tapşırıq verir:

İntenetdən istifadə edərək alkanların homoloji sırasında olan ilk 15 nümayəndəsinin normal şəraitdə sıxlıqlarını, qaynama və ərimə temperaturlarını axtarıb tapın, sonra həmin məlumatlara əsasən Microsoft Excel proqramından istifadə eədrək fiziki xassələrinin alkanların nisbi molekul kütləsindən asılılıq qrafiklərini qurun.

Sonda müəllim belə bir sualla onlara müracəyət edir:

Aldığınız qrafikə diqqətlə baxın, alkanların fiziki xassələrinin onların homoloji sırada hansı qanunauyğunluqla dəyişdiyini müəyyən edin və səbəbini tapmağa çalışın. Tapşırığın yerinə yetirilməsinə 3 dəqiqə vaxt verilir.

3 dəqiqədən sonra müəllim qrupların fikirlərini dinləyir, müzakirə edir və yekun vurur. Yekun isə belə verilməlidir:

Alkanların ilk 4 nümayəndəsi normal şəraitdə qaz halındadır. Metan-iysiz, rəngsiz, havadan təxminən 2 dəfə yüngül qazdır. Sıranın sonrakı nümayəndələri olan etan, propan və butan da qazdır. Pentandan pentadekana qədər sonrakı 11 nümayəndəsi maye və sonrakı doymuş karbohidrogenlər bərk maddələrdir. Homoloji sırada karbon atomlarının sayı artdıqca karbohidrogen molekullarının nisbi molekul kütlələri artır və nəticədə onların qaynama və ərimə temperaturları qanunauyğun olaraq artır.

Müəllim şagirdlərlə birgə metan, etan, propan və butan molekullarının mil-kürəcik və kürəcik modellərini hazırlayır. Məhz bu modellər vasitəsilə alkanların ilk üç nümayəndəsində izomerlik hadisəsinin mümkün olmadığını əyani olaraq nümayiş etdirir. Modellər vasitəsilə n-butan və izobutan molekulları hazırlanır.




Bu izahatdan sonra müəllim sinifdəki şagirdlərə belə bir düşündürücü sualla da müraciyət edə bilər:

-Sizcə izomer maddələrin qaynama temperaturları bir-birindən necə fərqlənər və bunun səbəbini izah edir.

Müəllim bir neçə şagirdin cavabını dinlədikdən sonra verdiyi sualın cavabını dəqiqləşdirir:

-İzomer maddələr arasında şaxələnmiş karbohidrogenlərdə molekullararası cazibə qüvvəsi şaxələnməmiş karbohidrogenlərə nisbətən zəif olduğundan şaxəli alkanların qaynama temperaturu şaxələnməmiş karbohidrogenlərə nisbətən aşağı olur.

Bu sualı modellərdən istifadə edərək də vermək olar. Bunun üçün müəllim hər qrupa n-butan və izobutanın modellərini hazırlamağı tapşırır və belə bir sual verir:

-n-butan və izobutan molekullarının modellərindən istifadə edərək hansı maddənin qaynama temperaturunun yüksək omasını araşdırın.




Verilən sual kimya və fizika fənlərarası inteqrasiyaya aiddir. Şagirdlər orta məktəb fizika kursundan bilirlər ki, qaynama temperaturunda maddə molekulları arasındakı cazibə qüvvələri qırılmalı və molekullar mayenin səthini tərk etməlidirlər. Deməli, maddə molekulları bir-birinə nə qədər çox yaxınlaşıb daha güclü cazibə qüvvəsi ilə əlaqəli olarlarsa onun qaynama temperaturu yüksək olar. Maddələrin modellərindən göründüyü kimi n-butan molekulları izobutana nisbətən yüksək qaynama temperaturuna malik olmalıdır, çünki izo-butan molekulları arasındakı məsafə n-butan molekulları arasındakı məsafədən çox olur. Başqa sözlə, şaxələnmiş izo-butan molekullarının modellərini n-butana nisbətən daha yaxınlaşdırmaq olmur.

Müəllim tərəfindən metanın natrium-asetatın natrium-hidroksidlə reaksiyasından laboratoriyada alınması reaksiyası nümayiş olunur. Laboratoriya üsulu ilə alınan metanın yanma, bromlu su və kalium-permanqanat məhlulu ilə qarşılıqlı təsir reaksiyaları araşdırılır.

Müəllim dərsi müxtəlif problemli sualllarla davam etdirə bilər.




*Laboratoriyada metanın alınması*

$$CH_3COONa + NaOH \xrightarrow{t} CH_4\uparrow + Na_2CO_3$$

Bu tip problemli suallara misal kimi aşağıdakıları göstərmək olar:

1.Təcrübi olaraq sübut olunub ki, metan molekulu tetraedrik quruluşa malikdir. Sizcə, alaknların homoloji sırasındakı digər karbohidrogen molekulları da tetraedrik quruluşa malik olmalıdılarmı və niyə?

2. Sizə iki eyni həcmli ağzı bağlı qabda hidrogen və metan qazları verilmişdır. Hansı üsullarla hər bir qabda hansı qazın olduğunu təyin edə bilərsiniz?

3. Etan və etilxlorid molekullarının mil-kürəcik modellərini hazırlayın. Sizcə niyə etilxlorid molekulundakı hidrogen atomları etan molekulundakına nisbətən xlor atomları ilə daha asan əvəz olunur?

Şagirdlər tərəfindən alkanlar mövzusunun daha dərindən mənimsənilməsi üçün aşağıdakı çevrilmə və məsələlərin həll olunması məqsədəuyğundur.

1. Çevrilmələri həyata keçirtmək üçün uyğun reaksiya tənliklərini qurun.

$C \rightarrow CH_4 \rightarrow CH_3Cl \rightarrow C_2H_6 \rightarrow C_2H_5Cl$

2.Butanın hidrogenə və havaya görə nisbi sıxlıqlarını hesablayın. Normal şəraitdə 1 qram butanın kütləsini tapın.

3.44,8 $m^3$ propanın tam yanması üçün lazım olan havanın həcmini hesablayın ( havada həcncə 21% oksigen olduğunu qəbul edin).

4.101 qram xlormetan alınması üçün lazım olan xlorun mol miqdarını, həcmini və kütləsini hesablayın.

5. Tərkibində 50% metan, 20% etan, 20 % propan, 5 % hidrogen və 5% azot olan 100 litr qaz qarışığının tam yanması üçün lazım olan oksigenin mol miqdarını tapın.

6.Tərkibində 17, 24 % hidrogen olan karbohidrogenin hidrogenə görə nisbi sıxlığı 29-a bərabərdir. Bu karbohidrogenin molekulyar formulunu yazın və onun izomerlik imkanlarını mil-kürəcik modeli ilə araşdırın.

7. 10 qram naməlum doymuş karbohidrogenin oksigendə yanmasından 30, 345 qram karbon qazı alınmışdır. Karbohidrogeni təyin edin.

8. 6,4 litr (n.ş.) metanın yanmasından alınan karbon qazı 76,4 ml 32%-li KOH məhlulu ($\rho$=1,31q/ml) tərəfindən udulmuşdur. Alınan duzun kütləsini tapın.

Əlbəttə,alkanlar mövzusuna aid məsələ tiplərinin sayını daha da artırmaq olar.

Müəllimin əsas məqsədi şagirdlərdə alkanların ümumi formulu, homoloji sıra, molekullarındakı karbon–karbon və karbon–hidrogen arasındakı siqma rabitələrin sayının tapılması, alkanların fiziki xassələri, alınması və kimyəvi rabitələrin, alkanların vəsfi və miqdari tərkibinə görə identifikasiya olunmalarının öyrədilməsidir. Mövzunun tədrisi zamanı mil-kürəcik modellərindən istifadə etməklə alkan molekullarında atomların bir-birilə birləşmə ardıcıllıqlarının, izomerliklərinin və kimyəvi çevrilmələrinin aparılması məqsədəuyğundur. Bu zaman kompyuter modelləşdirməsinin 2D və 3D formalarından istifadə etmək olar. Bunun üçün internetdən istifadə edərək axtarış proqramlarının köməyi ilə alkanların hazır rəqəmsal modellərini nümayiş etdirə bilər və ya xüsusi kompyuter proqraamlarından istifadə edərək özü hazırlaya bilər.

## İstifadə edilmiş ədəbiyyat:

1. Lətifov İ.U., Mustafa Ş.Ə. Kimya. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı, 2016, 204s. (http://e-resurs.edu.az/noduploads/book /kimya-9-az-derslik.pdf.)

2. Пильникова Н.Н. Из опыта изучения непредельных углеводородов // Химия в школе. Москва, №4, 2015, стр.25-29

*Н.А.Абышов, У.Ш.Бахшыева*

**Применение моделирования в процессе преподавание органической химии в IX классе**

**РЕЗЮМЕ**

Представленная статья посвящена использованию моделирования в преподавании органической химии в 9 классах средних общеобразовательных школ. Изучались возможности моделирования во время преподавания органической химии.

*N.A.Abishov, U.Sh.Bakhshiyeva*

**Application of modeling in the process of teaching organic chemistry in IX grade**

**SUMMARY**

The proposed article is modeled on the teaching of organic chemistry in 9 classrooms of secondary general education. Studying possibilities of modeling in the teaching organic chemistry.

**Açar sözlər:** kimyanın tədrisi, karbohidrogen, şagird, kompyuter, modelləşmə, internet,atom, molekul

**Ключевые слова:** преподавание химии, углеводород, ученик, компьютер, модели-рование, интернет, атомы, молекулы

**Key words:** teaching chemistry, hydrocarbons, student, computer, modeling, internet, atoms, molecules.